AzərTAc xəbər verir ki, Azərbaycan Memarlıq və İnşaat Universitetinin (AMİU) memarlıq fakültəsi İtaliyanın Romualdo del Bianko Fondu və Florensiya Universiteti ilə birgə dekabrın 1-dən 5- dək həmin ölkənin Florensiya şəhərində İslam memarlıq irsinin qorunması və bərpası problemlərinə həsr edilmiş elmi konfrans keçirir.

Türkiyə, İran, Qazaxıstan, Rusiya, Suriya, Misir, İtaliya və Fransa alimlərinin iştirak etdikləri konfransda ölkəmizi AMİU-nun rektoru, professor G.Məmmədova, Azərbaycan Milli Elmlər Akademiyasının (AMEA) Şərqşünaslıq İnstitutunun direktoru, Milli Məclisin deputatı, professor G.Baxşəliyeva, AMEA-nın İncəsənət və Memarlıq İnstitutunun direktor müavini, professor E.Salamzadə təmsil edirlər.

***AzərTAc***